DİREKTORLARIN İŞƏ QƏBULU ÜZRƏ MÜSABİQƏ

TEZ-TEZ VERİLƏN SUALLAR (FAQ)

1. Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqədə kimlər iştirak edə bilər?

- Müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq (elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edə bilərlər.

2. Müsabiqəyə elektron sənəd qəbulu nə zaman həyata keçiriləcək?

- Müsabiqədə iştirak etmək istəyən namizədlər 30 oktyabr saat 11:00-dan 11 noyabr saat 17:00-dək https://miq.edu.az/direktor linkinə daxil olaraq elektron ərizələrinə müvafiq məlumatları daxil etdikdən, tələb olunan sənədləri yüklədikdən və vakant yerləri seçdikdən sonra ərizələrini təsdiq etməlidirlər.

3. Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə hansı mərhələlərdən ibarətdir?

- Direktorların işə qəbulu 2 mərhələdən (seçim və müsahibə) ibarət müsabiqə yolu ilə keçirilir.

4. Elektron müraciət zamanı namizəddən hansı sənədlər tələb olunur?

- Elektron müraciət zamanı namizəddən aşağıdakı sənədlər tələb olunur:

a) Ali təhsil haqqında sənədin surəti
b) Elmi ad və ya dərəcə varsa təsdiqedici sənədin surəti
c) Əmək müqaviləsi haqqında çıxarış və ya əmək kitabçasının surəti.

5. Müsabiqədə namizədlər hansı ballarla iştirak edə bilərlər?

- Namizədlərin seçim mərhələsinə buraxılması zamanı məktəbdə təhsilalanların sayına və müəssisənin növünə görə müxtəlif minimal ballar tələb olunur.

a) Məsələn, namizəd təhsilalanların sayı 501-dən çox olan təhsil müəssisələri, eləcə də lisey, gimnaziya, internat tipli lisey və gimnaziyalar üzrə sertifikatlaşdırılmanın test imtahanı mərhələsində, müəllimlərin işə qəbulu müsabiqəsində və ya müəllimlərin diaqnostik qiymətləndirilməsinin test imtahanında 85% və daha yuxarı nəticə göstərməlidir;

b) Digər təhsil müəssisələri üzrə sertifikatlaşdırılmanın test imtahanı mərhələsində, müəllimlərin işə qəbulu müsabiqəsində və ya müəllimlərin diaqnostik qiymətləndirilməsinin test imtahanında 70% və daha yuxarı nəticə göstərməlidir.

6. Namizəd neçə vakant yer üçün müraciət edə bilər?

- Ən çox 3 vakant yer seçilə bilər.

7. Müsahibə mərhələsinə dəvət hansı formada həyata keçirilir?

- Müsahibə mərhələsinə dəvət namizədlərin təhsil müəssisələrində təhsil alan şagirdlərin sayından (501-dən çox və ya 500-dək) və müəssisələrin növündən (lisey, gimnaziya, internat tipli lisey/gimnaziya və s.) asılı olaraq müəyyən edilmiş ardıcıllıq əsasında aparılır.

8. Şagird sayı 501-dən çox olan məktəblər, lisey və gimnaziyalar üzrə kimlərə üstünlük verilir?

- Bu kateqoriyaya aid təhsil müəssisələri üzrə müsahibəyə dəvət ardıcıllığı aşağıdakı kimidir:

a) vakansiyanın mövcud olduğu müəssisənin tabe olduğu yerli bölmə üzrə müəssisələrdə çalışan direktorlar, vakansiyanın mövcud olduğu müəssisədə çalışan direktor müavinləri və məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar;
b) vakansiyanın mövcud olduğu müəssisənin tabe olduğu yerli bölmə üzrə müəssisələrdə çalışan direktor müavinləri və məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar;
c) vakansiyanın mövcud olduğu müəssisələrdə çalışan müəllimlər;
d) vakansiyanın mövcud olduğu rayon (şəhər) üzrə müəssisələrdə çalışan müəllimlər;
e) vakansiyanın mövcud olduğu müəssisənin tabe olduğu yerli bölmə üzrə müəssisələrdə çalışan müəllimlər;
f) müvafiq tələblərə cavab verən Azərbaycan Respublikası vətəndaşları.

9. Şagird sayı 500-dək olan məktəblər üzrə ardıcıllıq necə müəyyən edilir?

- Bu kateqoriyaya aid təhsil müəssisələri üzrə müsahibəyə dəvət ardıcıllığı aşağıdakı kimidir:

a) vakansiyanın mövcud olduğu təhsil müəssisəsində çalışan direktor müavinləri, məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar və müəllimlər;

b) vakansiyanın mövcud olduğu rayon (şəhər) üzrə müəssisələrdə çalışan direktor, direktor müavinləri və məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar;
c) vakansiyanın mövcud olduğu müəssisənin tabe olduğu yerli bölmə üzrə müəssisələrdə çalışan direktor, direktor müavinləri və məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar;
d) vakansiyanın mövcud olduğu rayon (şəhər) üzrə müəssisələrdə çalışan müəllimlər;
e) vakansiyanın mövcud olduğu müəssisənin tabe olduğu yerli bölmə üzrə müəssisələrdə çalışan müəllimlər;
f) müvafiq tələblərə cavab verən Azərbaycan Respublikası vətəndaşları.

10. Müsahibə nə qədər və hansı formatda davam edir?

- Müsahibə ən azı 20 dəqiqə olmaqla davam edir.

11. Müsahibə mərhələsində namizədin hansı meyarlar üzrə qiymətləndirilməsi aparılır?

- Namizəd aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

a) Liderlik və strateji idarəetmə bacarıqları;
b) Pedaqoji və tədris bacarıqları;
c) İdarəçilik və təşkilatçılıq bacarıqları;
d) Ünsiyyət və əlaqə bacarıqları;
e) Problemlərin həlli və qərarvermə;
f) Rəqəmsal və texnoloji bacarıqlar;
g) Sosial və emosional bacarıqlar

12. Müsahibədə qiymətləndirmə necə aparılır?

- Yalnız bütün meyarlar üzrə “Uyğundur” qiyməti alan namizəd müsbət qiymətləndirilmiş hesab olunur.

13. Eyni nəticə göstərən namizədlər arasında seçim necə aparılır?

- Aşağıdakı ardıcıllıqla üstünlük verilir:

a) Daha yüksək test nəticəsi olan;
b) Magistr dərəcəsinə malik olan;
c) Pedaqoji stajı çox olan;
d) Rəhbər vəzifə təcrübəsi olan.

14. İşə qəbul prosesi hansı formada həyata keçirilir?

- Müsahibə nəticələri elan edildiyi vaxtdan qanunvericiliklə müəyyən olunmuş müddətdə, sənədlərin yoxlanmasından sonra vakant direktor vəzifəsini tutmuş namizədlə 1 il müddətinə əmək müqaviləsi bağlanılır. Həmin müddət başa çatdıqdan sonra məktəbin akademik göstəriciləri nəzərə alınaraq müqavilə müddəti uzadıla və ya daimi əsaslarla bağlanıla bilər.

15. Təsərrüfat işləri üzrə direktor müavinləri bu müsabiqəyə daxildirmi?

- Təsərrüfat işləri üzrə direktor müavinlərinin işə qəbulu ayrıca qaydada, müvafiq yerli bölmələr tərəfindən həyata keçirilir.